

**ABDİN FƏRZƏLİYEV,**
Bakı şəhər Nizami rayon
İcra Hakimiyyətinin Başçısı

# MÜSTƏQİL AZƏRBAYCANIN DÖVLƏT QURUCULUĞUNDA GƏNCLƏRİN ROLU

Ötən yüzilliyin sonlarında tarixin verdiyi şansdan bəhrələnərək müstəqilliyini bərqərar edən Azərbaycan, dövlətimizin başçısı, müdrik siyasətçi möhtərəm cənab Heydər Əliyevin iradəsi, titanik fəaliyyəti sayəsində möhkəmlənir və gələcəyə doğru daha inamlı addımlar atır. Bu gün ölkə vətəndaşları həyatın hər bir sahəsində müsbət dəyişikliklərin baş verdiyinin şahididir. Müstəqilliyimizin dönməzliyi təmin edilmişdir. Cəmiyyət getdikcə daha artıq dərəcədə demokratik prinsiplərlə idarə olunur. İqtisadiyyatda, kənd təsərrüfatında islahatlar dönməz xarakter alıb. Çevik və səmərəli infrastruktur qurulur. Bunların nəticəsi isə özünü sosial sferada büruzə verir. Dövlət cəmiyyətin sosial müdafiəsini gücləndirmək məqsədilə ardıcıl tədbirlər həyata keçirir. İnsanların rifah halı yaxşılaşmışdır. Respublikamızın dünya birliyi ilə inteqrasiyası dərinləşib. Ölkəmiz beynəlxalq aləmdə öz layiqli yerini tutur.

Bütün bu uğurların qazanılmasında möhtərəm cənab Heydər Əliyevin daimi diqqət və qayğısı ilə əhatə olunmuş gənclər də fəal iştirak etmişlər. Dövlətimizin başçısı möhtərəm cənab Heydər Əliyev gənclərin birinci forumunda onların qarşısında duran vəzifələrdən danışaraq demişdir: «Hər bir gənc Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, inkişaf etdirmək, yaşatmaq üçün çalışmalıdır və öz xidmətlərini göstərməlidir». Paytaxtın çoxsaylı gənclər ordusunu özündə birləşdirən təşkilatın rəhbəri kimi inamla deyə bilərəm ki, gənclər böyük öndərin tövsiyələrini həyatlarının amalı, fəaliyyətlərinin məqsədi sanmış, onun verdiyi tapşırıqları yerinə yetirməyə çalışmışlar. Şübhə ola bilməz ki, gənclər bundan sonra da bilik və bacarıqlarını, potensiallarını müstəqil Azərbaycanın çiçəklənməsinə, daha da möhkəmlənməsinə yönəldəcəklər.

Azərbaycan gəncləri həmişə vətənə böyük sevgiləri, mənsub olduqları xalqa dərin sədaqəti ilə fərqlənmişlər. Müstəqillik tariximizin ən şanlı səhifələri məhz gənclərin adı ilə bağlıdır. Gənclər xalqımızın azadlıq mübarizəsinin önündə olmuşlar. Məmləkətimizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə, Azərbaycanın parçalanmasına, siyasi dövlət quruluşunun devrilməsinə yönəlmiş qəsdlərin qarşısının alınmasında minlərlə gənc şəhidlik zirvəsinə ucalmışdır.

Lakin təəssüf ki, müstəqilliyimizin ilk çağlarında gənclər siyasəti başlı-başına buraxılmış, nəticədə, bu böyük qüvvənin potensialından səmərəli istifadə olunma-

mışdır. Əksinə, ayrı-ayrı başabəla liderlər, siyasi qüvvələr həyat təcrübəsi az olan gənclərdən öz məkrli niyyətlərini, ambisiyalarını həyata keçirmək üçün bir alət kimi bəhrələnmişlər. Tarixin bütün dönəmlərində, bütün cəmiyyətlərdə həmişə fəal qüvvə kimi fərqlənmiş və ciddi önəm verilmiş gənclərə belə münasibət müstəqilliyimizin ilk çağlarında Azərbaycan iqtidarının başında duranların dövlət idarəçiliyində necə bir xaos yaratdıqlarını parlaq şəkildə əks etdirir. Gələcək fəaliyyətimizin istiqamətlərini düzgün müəyyənləşdirməkdən ötrü o illərin mənzərəsini dönə-dönə təhlil etməliyik. Bu təkcə yaxın keçmişimizin ziddiyyətlərlə dolu olan bir səhifəsi deyil, daha çox istiqlalımızın əldən getməsi təhlükəsinin qarşısının alınması tarixidir. Bundan örnək, nəticə çıxarmaq lazımdır.

Tale elə gətirib ki, XX yüzilliyin sonlarında Azərbaycanın ikinci dəfə müstəqillik qazanması bizim nəslin şahidliyi ilə baş vermişdir. Milli azadlıq hərəkatının əvvəlindən bu günədək baş verən olaylar, ictimai-siyasi proseslər yaddaşlarımızda hələ təzədir, biz bu hadisələrin bilavasitə iştirakçıları olmuşuq. İstiqlal qazanmaq, müstəqil dövlət qurmaq hər bir xalq üçün çox əlamətdar haldır. Bu, ələlxüsus gənclərin böyük arzusudur. Lakin biz bu illəri heç də sakit, heç də yalnız müstəqillik sevincini duyaraq yaşamamışıq. Ötən illər ölkəmizin, hələ kövrək olan müstəqilliyimizin taleyinə görə narahatçılıq keçirdiyimiz anlarla dolu olmuşdur.

Gəlin müstəqilliyimizin ilk illərinə qısa nəzər salaq. Ölkədə idarəolunmaz bir vəziyyət yaranmışdır. Qarışıq məqamda xalqın azadlıq duyğularından yararlanaraq məşhurlaşmış liderlər, partiya başqanları qarşısıalınmaz bir istəklə hakimiyyətə yiyələnmək uğrunda marafona çıxmışdılar. Rus yazıçısı Krılovun məşhur təmsili sanki bizim başabəla liderlərin əməllərinin mahiyyətini açıb göstərmək üçün qələmə alınmışdı. Ölkədə müharibə getdiyi, torpaqlarımızın bir qisminin düşmən təcavüzünə məruz qaldığı bir vaxtda ayrı-ayrı partiyalar, siyasi qruplar vahid komandanlıq altında birləşən ordu yaradılmasına kömək göstərmək, qüvvələri ümummilli məsələlərin həllinə yönəltmək əvəzinə, bir-birinə qarşı ambisiyalar nümayiş etdirirdilər. Belə qarışıq məqamda xalqın inamından sui istifadə edib hakimiyyəti zorla qamarlayan AXC-Müsavat cütlüyünün birillik hakimiyyəti məmləkətə daha ağır müsibətlər gətirdi. Ölkədə qanunlar deyil, sözükeçən liderlərin diqtəsi işləyirdi. Onların öz təsir dairələrini genişləndirmək uğrunda apardıqları açıq və gizli mübarizə getdikcə daha geniş miqyas alırdı. İş o yerə çatmışdır ki, bu liderlər hətta cəbhə xəttində düşmənlə üz-üzə dayanan silahlı qüvvələri belə öz təsir dairəsinə keçirmişdilər. Qüvvələrdən biri hücuma keçəndə digərlərinə atəşi dayandırmaq və yaxud geri çəkilmək əmri verilirdi. Dövlətin xarici siyasəti də, necə deyərlər, yox idi. Ölkəmiz getdikcə daha çox dərəcədə beynəlxalq aləmdən təcrid olunurdu. AXC-Müsavat cütlüyünün diletant iqtidarının apardığı naşı siyasət 1993-cü ilin yayında Azərbaycanı bütün bunlardan daha dəhşətli bir fəlakətlə üz-üzə qoydu: ölkədə Konstitusiya quruluşu pozulmuş, vətəndaş qarşıdurması təhlükəsi yaranmışdır.

Açıq-aydın görünürdü ki, mövcud partiyalar, siyasi qüvvələr ölkədə yaranmış mürəkkəb ictimai-siyasi vəziyyətdən çıxış yolu tapmağa qadir deyillər. Ölkənin qabaqcıl ziyalıları təhlükənin miqyasını daha aydın təsəvvür edirdilər. Bir addım bundan o yana uçurum idi. Yaranmış vəziyyəti real qiymətləndirib düzgün çıxış yolu tapacaq, ölkənin potensialını səfərbərliyə alıb problemlərin həllinə yönəldə biləcək, milli mənafeni və müasir dünyanın prioritet maraqlarını tarazlaşdıraraq xarici siyasəti quracaq yeni bir qüvvənin ətrafında xalqı birləşdirmək lazım idi. Belə yeni mütərəqqi qüvvə Azərbaycanın qabaqcıl ziyalılarının təşəbbüsü və sağlam əqidəli gənclərin fəal dəstəyi ilə təşəkkül taparaq siyasi fəaliyyət meydanına atılan Yeni Azərbaycan Partiyası oldu. 1992-ci il noyabrın 21-də təsis konfransı keçirilən YAP-ın başında müdrik siyasətçi, xalqımızın ləyaqətli oğlu, həyatı və fəaliyyəti xalqa, Vətənə təmənnasız xidmət nümunəsi olan möhtərəm cənab Heydər Əliyev durur. Yeni siyasi qüvvənin tez bir zamanda nüfuzunun artmasını şərtləndirən əsas amil də məhz bu idi. Böyük öndərimiz möhtərəm cənab Heydər Əliyevin müdrik zəkasının işıqlı ideyaları ilə silahlanmış, müstəqilliyimizi möhkəmlətməyi, Azərbaycanı inkişaf etdirməyi, ölkədə demokratik prinsipləri həyat normasına çevirməyi, xalqın rifah halını yaxşılaşdırmağı qarşısına məqsəd qoymuş Yeni Azərbaycan Partiyası yarandığı az vaxtdan sonra hakimiyyətə gəldi və cəmiyyətin bütün təbəqələrini əhatə edən güclü bir siyasi təşkilata çevrildi.

Ölkənin «ölüm, ya qalım» dilemması ilə üz-üzə dayandığı bir vaxtda xalq üzünü sınanmış oğlu, YAP-ın lideri möhtərəm cənab Heydər Əliyevə tutaraq onu təkidlə Azərbaycanın ali rəhbərliyinə dəvət etdi. Təkrar edirik, bu dəvət tarixi məqamda, son dərəcə mürəkkəb bir şəraitdə edilmişdi və çox az siyasətçi tapılardı ki, belə vəziyyətdə hakimiyyətin məsuliyyətini bölüşməyə razılıq versin. Lakin necə deyərlər, hazırın nazirinə yiyələnmək istəyən siyasətçilərdən fərqli olaraq möhtərəm cənab Heydər Əliyev öz təcrübəsini, bilik və bacarığını vaxtı ilə çox xidmətlər göstərdiyi Azərbaycanın bəlalardan qurtulmasına həsr etməyi özünün övlad borcu sandı və xalqı ilə bir yerdə olmağa qərar verdi.

Xalqın seçimi yeganə düzgün seçim idi. Biz o çətin illərdə möhtərəm cənab Heydər Əliyevin yaranmış mürəkkəb vəziyyəti, bəzən gözlənilmədən baş vermiş hadisələri necə müdrikliklə, təmkinlə və qətiyyətlə nizamlayıb yoluna qoyduğunu minnətdarlıqla xatırlayırıq. Çiyinlərində uzun illərin idarəçilik təcrübəsi olan və zəngin şəxsi həyat yolu keçmiş möhtərəm cənab Heydər Əliyev cari və perspektiv məsələləri məharətlə əlaqələndirir, bütün hadisələri sanki süzgəcdən keçirərək yeganə düzgün qərarlar qəbul edirdi. Beləliklə, möhtərəm cənab Heydər Əliyev ölkənin başı üstünü almış vətəndaş müharibəsi təhlükəsini çox məharətlə sovuşdurdu, dövlət idarəçiliyi ənənəsini bərqərar etdi, Azərbaycanın üzünü sabitliyə, inkişafa, demokratiya yoluna, dünya ilə inteqrasiyaya yönəltdi. 1993-cü ilin yayından bəri ölkəmizin həyatı müqayisəyəgəlməz dərəcədə dəyişmişdir. On il tarix üçün çox da böyük zaman kəsiyi deyildi. Ancaq möhtərəm cənab Heydər Əliyev dövlətimizin sükanı arxasında olduğu bu on ildə respublikamızı başqa ölkələrin bəlkə də bir neçə on ilə qət etdikləri yüksəkliyə qaldırmışdır. Ölkədə davamlı, heç bir qüvvənin poza bilməyəcəyi möhkəm sabitlik yaradılıb

ki, bu da digər sahələrdə işlərin rəvan getməsinə səbəb olmuşdur. Neft strategiyasının düzgün işlənməsi və qətiyyətlə həyata keçirilməsi Azərbaycanın əsas milli sərvətinin səmərəli istismarına və dünya bazarına çıxarılmasına, ölkəyə çoxlu miqdarda investisiyalar cəlb olunmasına, infrastrukturun inkişafına, yeni iş yerlərinin yaradılmasına səbəb olmuşdur. Ölkəmizin beynəlxalq nüfuzunun artması, Azərbaycanın haqq işinin getdikcə daha ardıcıl surətdə dəstəklənməsi də möhtərəm cənab Heydər Əliyevin ardıcıl həyata keçirdiyi uğurlu xarici siyasətin məntiqi nəticəsidir.

Görkəmli dövlət xadimi möhtərəm cənab Heydər Əliyevin müstəqil Azərbaycan qarşısında ən böyük xidmətlərindən biri də onun ölkənin ali rəhbərliyinə qayıtdıqdan dərhal sonra unudulmuş, başlı-başına buraxılmış gənclər siyasətini canlandırması oldu. Əgər bu gün biz gənclərin pis vərdişlərdən uzaq düşmələrindən, ictimai-siyasi proseslərdə fəal iştirak etmələrindən, idarəetmə orqanlarında təmsil olunmalarından, yüksək səviyyəli təhsil almalarından, Vətən qarşısında xidmətlərini can-başla yerinə yetirmələrindən, dünyanın möhtəşəm idman salonlarında yüksək nəticələr qazanaraq Azərbaycanın himnini səsləndirmələrindən və beləliklə də respublikamızın müstəqilliyinin möhkəmlənməsinə layiqli töhfə vermələrindən məmnunluqla söhbət açırıqsa, bütün bunlar ilk növbədə dövlətimizin başçısı möhtərəm cənab Heydər Əliyevin gənc nəslə göstərdiyi böyük qayğının və həm də onlara bəslədiyi dərin inamın bəhrəsidir. Möhtərəm cənab Heydər Əliyev gənclərin cəmiyyətdəki rolunu, onların bu gün və gələcək üçün böyük quvvə olduqlarını həmişə qiymətləndirmişdir. O, respublikanın, xalqın sabahını düşünərək həmişə çalışmışdır ki, gənclər yüksək elmi biliklərə yiyələnsinlər, zəngin həyat təcrubəsi toplasınlar və əlbəttə ki, fiziki cəhətdən sağlam böyüsünlər. Bu gün biz möhtərəm cənab Heydər Əliyevin ötən əsrin 70-ci illərində azərbaycanlı gəncləri keçmiş ittifaqın qabaqcıl ali məktəblərində təhsil almağa göndərdiyini, buna nail olmaqdan ötrü bütün imkanlarından istifadə etdiyini məmnuniyyətlə xatırlayırıq. Yüksək səviyyəli mütəxəssis kimi yetişmiş həmin gənclər indi müxtəlif sahələrdə müvəffəqiyyətlə çalışaraq müstəqil Azərbaycana ləyaqətlə xidmət göstərirlər.

Həyatı və fəaliyyəti boyu gənclərə həmişə belə atalıq qayğısı ilə yanaşmış möhtərəm cənab Heydər Əliyev xalqın təkidli istəyi ilə 1993-cü ilin yayında yenidən Azərbaycanın ali rəhbərliyinə qayıtdıqdan sonra dövlət siyasətinin digər sahələri kimi, gənclərlə işə də xüsusi önəm verməyə başladı. Mən 1993-cü ilin sentyabrında ölkədə çox ziddiyyətli ictimai-siyasi proseslər cərəyan etdiyi bir vaxtda möhtərəm cənab Heydər Əliyevin gənclərlə görüşə vaxt tapmasını həmin görüşün iştirakçısı kimi məmnuniyyətlə xatırlayıram. Məhz bu görüşün nəticəsi kimi 1994-cü ildə Gənclər və İdman Nazirliyi yarandı və ölkəmizdə gənclərlə iş, idmanın inkişafına qayğı dövlət siyasəti səviyyəsinə qaldırıldı. Gənclər və İdman Nazirliyinin yaradılması böyük sayda gənclər ordusunun potensialının Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi işinə yönəltmək üçün mühüm vasitə oldu. O vaxtlar gənclərin təşkilatlanmasına yardımçı olacaq bir qurum yox idi. Milli Olimpiya Komitəsinin də fəaliyyəti nəzərə çarpmırdı. Belə şəraitdə yeni yaradılan Gənclər və İdman Nazirliyi bu boşluğu doldurdu və gənclərlə işi canlandırdı. Sonradan bu iş yenə möhtərəm cənab Heydər Əliyevin təşəbbüsü ilə keçirilən gənclərin birinci və ikinci forumlarında davam etdirildi. Bu toplantılarda gənclər müstəqil Azərbaycanın möhkəmlənməsinə öz töhfələrini vermək istədiklərini bəyan etdilər, təkliflərini səsləndirdilər. Dövlət başçısı gənclərin arzu və istəklərini nəzərə alaraq onların ictimai-siyasi proseslərə daha fəal qoşulmalarını, həyatlarının daha mənalı olmasını təmin edəcək fərman və sərəncamlar imzaladı.

Gənclərə, onların təhsilinə, asudə vaxtların təşkilinə göstərilən qayğı, təbii ki, hədər getməmişdir. Bu gün ölkəmizdə dövlətimizin başçısının arzuladığı kimi vətənimizin sabahını etibarlı şəkildə qura biləcək, mənəvi cəhətdən yetkin, fiziki cəhətdən sağlam gənclər ordusu yetişmişdir. Gənclər öz liderləri, millət vəkili, ARDNŞ-nin birinci vitse-prezidenti, MOK-un prezidenti cənab İlham Əliyevin çoxşaxəli fəaliyyətinin timsalında müstəqil Azərbaycanın möhkəmlənməsi naminə göstərdikləri xidmətlərə görə haqlı olaraq qürur hissi keçirirlər. Müdrik dövlət xadimi möhtərəm cənab Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı olan cənab İlham Əliyev artıq yetkin siyasətçi kimi formalaşmışdır və cəmiyyətin yetkinləşməsi prosesində, ölkənin sosial-iqtisadi və xarici siyasətinin uğurla həyata keçirilməsində fəal iştirak edir. Bu gün xarici ölkələrdə belə Azərbaycanın neft siyasətinin düzgün qurulduğu açıq-aşkar etiraf edilir. Bu strategiyanın seçilməsində və uğurla həyata keçirilməsində ARDNŞ-nın birinci vitse-prezidenti kimi cənab İlham Əliyevin xidmətləri böyükdür. Cənab İlham Əliyev gənc nəslin əsl hamisidir. O, gənclərin hərtərəfli yetişmələri, öz potensiallarını üzə çıxartmalarından ötrü əlverişli şərait yaradılması üçün əlindən gələn hər şeyi edir. Onun Milli Olimpiya Komitəsinin prezidenti vəzifəsində fəaliyyəti buna əyani sübutdur. Cənab İlham Əliyev 1997-ci ildə varlığı ilə yoxluğu hiss olunmayan MOK-un prezidenti seçildi və bununla da, Azərbaycanda Olimpiya Hərəkatının, idmanın yüksəliş dövru başladı. Bu illərdə cənab İlham Əliyevin diqqəti sayəsində idmanın maddi-texniki bazası möhkəmləndirilmiş, Bakıda, respublikanın bölgələrində ən müasir, Avropa standartları səviyyəsində möhtəşəm idman qurğuları tikilib istifadəyə verilmiş, idmançıların beynəlxalq səviyyəli yarışlarda iştirakı təmin edilmişdir.

Bu qayğının nəticəsini çox da gözləmək lazım gəlməmişdir. İdmançılarımız mötəbər beynəlxalq turnirlərdə, dünya çempionatlarında yüksək nailiyyətlər qazanaraq müstəqil Azərbaycanın himninin səsləndirilməsinə, üçrəngli bayrağımızın qaldırılması şərəfinə nail olurlar. Bu isə tək idmanın inkişafı deyil, həm də respublikamızın xaricdə təbliği, xalqımız barədə müsbət imic formalaşdırılması naminə göstərilən xidmətdir.

Cənab İlham Əliyev bu missiyanı parlament nümayəndə heyətimizin rəhbəri kimi Avropa Şurası Parlament Assambleyasında da uğurla davam etdirərək Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırılması yönündə səmərəli iş aparır. Onun AŞ PA-nın iclaslarındakı çıxışları əhatəliliyi, məntiqi əsaslandırma-

ları ilə fərqlənir. Son iki ildə bu təşkilat Azərbaycanın mənafeyinə cavab verən, o cümlədən ərazilərimizin ermənilər tərəfindən işğalı faktını təsdiqləyən 10-dək sənəd qəbul etmişdir. AŞ PA-nın 2003-cü ilin yanvar ayında keçirilən qış sessiyasında isə «Avropa evi»ndən daha bir xoş xəbər aldıq: Parlament nümayəndə heyətimizin rəhbəri cənab İlham Əliyev qurumun vitse-spikeri və büro üzvü seçilmişdir. Bu bir tərəfdən İlham Əliyevin şəxsiyyətinə, AŞ PA-dakı səmərəli fəaliyyətinə göstərilən yüksək etimaddırsa, digər tərəfdən dövlətimizin başçısı möhtərəm cənab Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən diplomatiyamızın böyük uğurudur. Beləliklə də, parlament nümayəndə heyətimiz, onun rəhbəri cənab İlham Əliyev mötəbər beynəlxalq təşkilatda Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün daha geniş imkanlar qazanmışdır. Cənab İlham Əliyevin özü yaranmış imkandan Azərbaycanın dövlət maraqlarının qorunmasında, hər şeydən öncə isə Qarabağ probleminin həllində istifadə edəcəyini vurğulayaraq demişdir: «Biz Ermənistanın Azərbaycana təcavüzünü və onun nəticələrini, erməni tərəfin münaqişənin ədalətli həllini istəməməsini ifşa edəcəyik».

Gənclər öz mənəvi liderləri cənab İlham Əliyevin belə çoxşaxəli və uğurlu fəaliyyətindən, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi naminə göstərdiyi xidmətlərdən haqlı olaraq qürur duyurlar. Cənab İlham Əliyevin fəaliyyəti təkcə Azərbaycan gənclərinə deyil, bütün siyasətçilərə, düşüncə adamlarına, partiya quruculanna vətəni sevmək və ona ləyaqətlə xidmət göstərmək nümunəsidir. Gənclərin və onlarla birlikdə bütün cəmiyyətin İlham Əliyevin fəaliyyətinə verdiyi bu dəstək möhtərəm prezidentimizin müdrik siyasətinin gələcəyinə dərin inamdan qaynaqlanır.

İndi cəmiyyətimiz qarşıdan gələn prezident seçkilərinə hazırlaşır. Cari ilin payızında xalq növbəti beş ilə Azərbaycan dövlətinin başçısını seçmək üçün iradəsini nümayiş etdirəcəkdir. Xalqın mütləq əksəriyyətinin, ö cümlədən də gənclərin mövqeyi birmənalıdır. Biz növbəti beş ildə də müstəqil Azərbaycan dövlətinin sükanı arxasında möhtərəm cənab Heydər Əliyevi görmək istəyirik. Bu istəyin möhkəm əsasları var. Biz bu istəyimizi bildirərkən ilk növbədə möhtərəm cənab Heydər Əliyevin müstəqil Azərbaycanın inkişafına verdiyi töhfələri əsas götürürük. Hər şey müqayisədə aydın görünür. Cənab Heydər Əliyevin dövlətçiliyimizin möhkəmlənməsində rolunu təsəvvür etməkdən ötrü ölkədə 1993-cü ilin yayınadək hökm sürən və ondan sonrakı dövrdə yaranan vəziyyəti göz önünə gətirmək gərəkdir. Əslində, bu iki dönəmdə baş verən olaylar, həyat həqiqətləri bir-birindən o qədər kəskin əks qütblərdə dayanır ki, onları hətta hər hansı parametrlərə görə müqayisə etmək belə mümkün deyil. 1993-cü ilin yayında xalqının ona bəslənən ümidlərini qırılmağa qoymayaraq, Azərbaycanın siyasi hakimiyyətinə gəlmiş möhtərəm cənab Heydər Əliyev özündən əvvəlki xalqa arxa çevirən manqurt, dövləti öz düşüncə tərzləri ilə idarə etməyə cəhd göstərən səriştəsiz iqtidarların cəmiyyətə vurduqları yaraları sağaltmağa başladı. O, müdrik siyasət yürüdərək ölkəni bürümüş xaosu aradan qaldırmağa, silahlı birləşmələri ram etməyə, hər şeyin yaxşılığa doğru dəyişməsinə və sonradan bu müsbət proseslərin dönməz xarakter almasına nail oldu.



Gənclər Vətənin, xalqın uğursuzluqlarına və nailiyyətlərinə həmişə çox həssas olmuşlar. Vaxtı ilə respublikamızın üzləşdiyi məhrumiyyətlər bizi nə qədər məyus edirdisə, indi ölkənin ahəngdar inkişaf yoluna çıxması, dünya birliyində öz layiqli yerini tutması da bizi bir o qədər sevindirir. Gənclər müstəqil Azərbaycanın uğurları ilə haqlı olaraq qürur hissi keçirirlər. Biz, əlbəttə ki, öz məsuliyyətimizi də başa düşürük. Tarixin dərslərindən hamımız ibrət götürməliyik. Bir daha yol verməməliyik ki, dövlətimizin sükanı arxasına müstəqilliyimizə, milli maraqlarımıza xələl vura biləcək qüvvələr keçsin. Azərbaycanın xoşbəxt gələcəyi artıq 10 ildir ki, Vətənimizə günəş kimi işıq saçan Heydər Əliyev ideyalarının təntənəsi ilə bağlıdır. Buna görə də qarşıdan gələn prezident seçkilərində biz gənclərin yeganə namizədi böyük öndər, xalqımızın ləyaqətli oğlu, Azərbaycanın inkişafına əvəzsiz töhfələr bəxş etmiş, gənc nəslin hamisi möhtərəm cənab Heydər Əliyev olacaq.